# V BÖLMƏ
# AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

**UOT 338.43**

***İslam Hacı oğlu İBRAHİMOV***
***iqtisad elmləri doktoru, professor,***
***Əməkdar kənd təsərrüfatı işçisi***
***Bakı Biznes Universiteti***

## İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ AQRAR SAHƏNİN POTENSİALLARI VƏ İNKİŞAF AMİLLƏRİ

***Xülasə***

**Tədqiqatın məqsədi** – işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin potensialları və inkişaf amillərini araşdırmaqdır.

**Tədqiqat metodologiyası** – tədqiqat işi məntiqi və sistemli yanaşma, müqayisəli təhlil üsulları əsasında yerinə yetirilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – alınmış analitik nəticələr əsasında hazırlanan təkliflərdən işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin mövcud potensiallarından səmərəli istifadə tədbirlərində, müvafiq tənzimləmə proqramları hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat nəticələri** – işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişafına dair təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** - işğaldan azad edilmiş ərazilərdə aqrar sahənin mövcud potensialları və onun istifadə istiqamətləri konkret faktlarla işıqlandırılır. Məqalədə Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımızı, əmlakımızı dağıtmaları, burada yaşayan əhalinin məcburi köçkünə çevrilməsi, aqrar sahəyə çox böyük maddi ziyan vurmaları araşdırılır. İşğal edilən ərazilərimizdə işğaldan əvvəl istehsal olunan bitkiçilik və heyvandarlıq məhsullarının respublikada tutduğu xüsusi çəkisi, ərazilərimizin 9 noyabr 2020-ci ildə işğaldan azad edilməsi, mövcud torpaq, su, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi və sahibkarlığın formalaşdırılması nəticəsində 2025-ci ilə kənd təsərrüfatı məhsulları istehsalının 6-7 faiz artırılması ehtiyatları əsaslandırılır. Bununla əlaqədar ərazilərdə kənd təsərrüfatının inkişafı məqsədilə müvafiq təkliflər irəli sürülür.

***Açar sözlər: potensial, inkişaf, biznes, maddi ziyan, işğal, ərazi bütövlüyü, yenidənqurma.***

### *Giriş*

Hazırda Azərbaycan xalqı dövrünün ən unudulmaz və əzəmətli tarixini yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə müzəffər ordumuz zamanında hər kəsə nağıl kimi görünən, əslində isə bütöv Azərbaycanın tərkib hissəsi olmuş Qarabağın 30 il ərzində Ermənistan tərəfindən işğalına son qoyaraq ərazi bütövlüyümüzü bərpa etmişdir.

İşğaldan azad edilmiş ərazilərdə (İAEƏ) kənd təsərrüfatının gələcək inkişafının əsas istiqamətləri respublika Prezidenti İlham Əliyevin çıxışlarında öz əksini tapmışdır. Bunun üçün Ermənistanın Azərbaycana qarşı on illərdir yürütdüyü ekoloji terror siyasətinin nəticələri aradan qaldırılmalı, su anbarlarındakı su təbii arxlara yönləndirilməklə əkin sahələri təsərrüfat suyu ilə təmin olunmalı, torpaqlar yenidən həyata qaytarılmalı, yəni uzun illər əkilməyən xam torpaqlarda əkin aparılmalıdır. Erməni vandallarının dağıtdıqları, yararsız hala saldıqları torpaqlar təmizlənməli, yararlı hala salınmalı, əkin dövriyyəsinə cəlb edilməlidir.

Ötən 2020-ci il bütünlüklə dünya ölkələri üçün ağır il olmuşdur. COVİD-19 pandemiyası səbəbindən dünya ölkələrinin qapanması və əlaqələrin dondurulması nəticəsində ölkələrin sosial-iqtisadi vəziyyəti əhəmiyyətli dərəcədə pisləşdi, bir çox sosial-iqtisadi layihələr təxirə salınaraq idxal-ixrac əməliyyatları pozuldu. Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası və məğrur xalqımız mövcud iqtisadi, sosial çətinliklərə və müharibənin gətirdiyi maddi itkilərə baxmayaraq erməni təcavüzünə son qoydu, torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa edildi. Torpaqlarımızın işğaldan azad olunması həmin ərazilərin potensialının düzgün istifadə edilməsini qarşıya qoyur. 30 illik işğal zamanında ərazilərin mövcud yerüstü və yeraltı sərvətlərindən istifadə edilməmiş və bu, geosiyasi vəziyyətin, ümumilikdə regionun inkişafına da mənfi təsir göstərmişdir. Araşdırmalar göstərir ki, İAEƏ-in təbii ehtiyatları, xüsusilə kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı üçün önəmli mövqeyə malikdir.

**Aqrar sahənin potensialları**

Məlumdur ki, kənd təsərrüfatı qlobal miqyasda ölkələrin iqtisadiyyatında çox böyük əhəmiyyətə malikdir və ölkə əhalisi üçün əsas qida, gəlir və məşğulluq mənbəyi hesab olunur. Hesablamalara görə ölkəmizdə qidanın 80-85 faizi, kənd əhalisinin gəlirlərinin 80 faizi, məşğulluğun 35 faizi kənd təsərrüfatının payına düşür. Bu baxımdan kənd təsərrüfatı davamlı olaraq inkişaf etdirilir və iqtisadiyyatın bütün sektorlarının təbii və sosial – iqtisadi münasibətləri çərçivəsində əlavə dəyər yaradır. Elmi və təcrübi kontekstdə baxdıqda kənd təsərrüfatının fəaliyyətləri: 1) Cəmiyyət üçün zəruri olan əsas qida maddələrinin istehsalı, 2) Qida ehtiyaclarının ödənilməsi, 3) Kənd təsərrüfatına əsaslanan sahələrdən resursların ötürülməsi, 4) Kənd təsərrüfatından asılı olan sahələrə xammal ehtiyatlarının verilməsi, 5) Milli gəlirə və tədiyyə balansına töhfə verməsi, 6) Digər istehsal və xidmət sektorlarının içşi qüvvəsi ilə təmin edilməsi baxımından əhəmiyyətlidir. Kənd təsərrüfatının iqtisadiyyata verdiyi bütün bu töhfələrin davamlı və dayanıqlılığını təmin etmək məqsədi ilə kənd təsərrüfatının əsas hərəkətverici qüvvəsi hesab olunan investisiyalar ayrılması və insan kapitalının formalaşdırılmasına böyük ehtiyac vardır.

Kənd təsərrüfatı torpaqlardan istifadə edərək bitkiçilik və heyvandarlıq mənşəli məhsulların əldə olunan əsas iqtisadi fəaliyyət sahəsidir. İnsan cəmiyyətinin inkişafı səbəbindən kənd təsərrüfatı, öz ehtiyaclarını təmin etmək məqsədi ilə və həmçinin cəmiyyətin ehtiyacları baxımından istehsaldan əmtəə istehsalına qədər inkişaf yolu keçmişdir. Beləliklə, təsərrüfatlara öz ehtiyaclarından daha çox istehsal olunmuş kənd təsərrüfatı məhsullarının bazara təklifi və digər iqtisadi fəaliyyətlərdən əldə olunan məhsul və xidmətlər müqabilində satmaq imkanı vermişdir. Aqrar sahibkarlığın rolu artdıqca onun funksiyaları cəmiyyətin iqtisadi inkişafında bir vasitə olmaqla yanaşı, həm də aqrar sektorda müəssisələrin daha dərin inteqrasiyasına gətirib çıxaran çoxşahəli milli bazarın formalaşmasına da kömək etmişdir. Bu baxımdan sahibkarlıq fəaliyyəti ölkə iqtisadiyyatının önəmli hərəkətverici qüvvələrindən hesab olunurlar. Sahibkar – məhsul və ya xidmətlər istehsal etmək üçün istehsal amillərini bir araya gətirərək risk edən bir şəxsdir. Aqrar sahibkarlıq anlayışı şəxsi istehlakı və bazar üçün məhsul istehsal edən şəxs deməkdir. Sahibkar qətiyyətli bir liderdir, hər zaman biznesini inkişaf etdirmək və genişləndirmək üçün fürsətlər axtarır. Bundan əlavə, bir sahbkar proqnozlaşdırılmış rasional riskləri almağı sevir, həm mənfəət, həm də zərər üçün məsuliyyət daşıyır, işini böyütmək üçün daima həvəslidir və həmişə yeni imkanlar axtarır. Kənd təsərrüfatında sahibkarlıq fəaliyyəti inkişaf etdikcə yeni fəaliyyət sahələri artır və məşğulluğun təmin edilməsinə şərait yaranır.

Qeyri-neft sektorunun əsas sahələrindən biri aqrar sahədir. Burada əhalinin məşğulluğu böyük xüsusi çəkiyə malikdir. Aqrar sahənin daha da inkişaf etdirilməsi “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə (6 dekabr 2016) strateji məqsədlər sırasına aqrobiznesin və kənd təsərrüfatı məhsulları emalının inkişafına xüsusi yer verilmişdir. Yol Xəritəsində əsas prioritetlərdən biri aqrobiznesin inkişafına dəstək verilməsi, infrastrukturun formalaşması və aqrobiznes mühitinin yaradılması üçün tədbirlərin görülməsi nəzərdə tutulur. Yol xəritəsində göstərilir ki, “...istehsalçılar və emalçılar arasında faydalı əməkdaşlıq arzuolunan səviyyədə deyildir və bu da aqrobiznesin dəyər zəncirlərinin bütün həlqələri

üzrə inkişafını məhdudlaşdırır” [1, s. 60] Kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə aparılması üçün strateji hədəf və beş prioritet istiqamət üzrə tədbirlər həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu prioritet istiqamətlərdən biri aqrobiznesin inkişafına dəstək infrastrukturunun formalaşdırılmasıdır. Yol Xəritəsində bununla əlaqədar qeyd edilir ki, “Qarşıdakı illərdə də bu strateji hədəf çərçivəsində aqrobiznesin inkişafı üçün əlverişli hüquqi, iqtisadi və informasiya mühitinin yaradılması istiqamətində fəaliyyətlər həyata keçiriləcəkdir”. [1, s. 61] Hesab edirik ki, kənd təsərrüfatında inkişafa nail olmaq baxımından İAEƏ-də bunlar nəzərə alınmalıdır.

Hazırda aqrobiznesin inkişafı bazarın özünütənzimlənməsi prinsiplərinə müvafiq iqtisadi fəaliyyətin spesifik forması kimi kənd təsərrüfatı məhsulları istehsalı, emalı, saxlanması, daşınması, marketinqi və reallaşdırılması prosesləri ilə əlaqədardır. Aqrobiznesin xarakterik xüsusiyyəti onun kommersiya prinsipləri əsasında aparılmasıdır. Yəni, aqrobiznes əslində geniş anlayış olub istehsalın təşkilindən,onun son məhsula çatdırılmasına kimi olan mərhələlərdə perspektivi görmək, fəaliyyətlərə çevik reaksiya vermək, bacarıq və vərdişlər əsasında qabaqcıl texnologiyalar və texnikalardan istifadə etməklə, ehtiyatları hərəkətə gətirmək, emalçı və vasitəçilərlə qarşılıqlı əlaqələr formalaşdırmaq aspektləri ilə xarekterizə olunur. İAEƏ-də bunlar kənd təsərrüfatının mövcud potensiallarından istifadə etməkdə əsas amillərdən biri olmalıdır.

Sahibkarlar hər zaman bizneslərinə daha yaxşı, daha səmərəli və gəlirli iş yolları axtardıqları üçün yenilikçi olurlar. Yenilikçi olmaq, xüsusən biznes güclü rəqabətlə üzləşdikdə və ya sürətlə dəyişən bir mühitdə fəaliyyət göstərdiyi zaman bir fermer - sahibkar üçün vacib bir keyfiyyətdir. Sahibkarlıq, mənfəət əldə etmək üçün müvafiq iş qurmaq və inkişaf etdirməkdir. Davamlı olaraq öyrənmək və inkişaf etmək sahibkarlıq fəaliyyətinin əsas xüsusiyyətlərindəndir. Bu baxımdan İAEƏ-də kənd təsərrüfatında formalaşan sahibkarlığın bir çox xüsusiyyətlərini özündə ehtiva edən cəhətlərin nəzərə alınmasını məqsədəuyğun hesab edirik.

**Ərazilərin işğalı nəticəsində kənd təsərrüfatının durumunun qiymətləndirilməsi**

Azərbaycan iqtisadiyyatının tarixən ən mühüm sahələrindən biri olmuş, ölkənin ümumi inkişafında, əhalinin sosial-rifah halının yaxşılaşmasında, yeni iş yerlərinin yaradılması və məşğulluğun təmin olunmasında kənd təsərrüfatı mühüm əhəmiyyətə malik olmuşdur. 1970-1980-ci illərdə Ulu öndər Heydər Əliyevin rəhbərliyi zamanında kənd təsərrüfatı daha sürətlə inkişaf edərək keçmiş Sovet İttifaqının ixtisaslaşmış kənd təsərrüfatı regionlarından birinə çevrilmişdir.

Mütəxəssislərin hesablamalarına görə, Ermənistanın işğalçılıq siyasəti nəticəsində kənd təsərrüfatına 10 milyard manatlarla zərər dəymiş, aqrar sahənin inkişafı xeyli ləngimişdir. Bu baxımdan işğal dövründə minlərlə insan öz fəaliyyətindən, təsərrüfatından uzaq düşmüş, torpaqlar deqradasiyaya uğramış və milli genetik resurslar məhsul və ərzaq anbarlarında məhv edilmişdir. Kənd təsərrüfatı texnika və avadanlıqları sıradan çıxarılmış, toxum istehsalı və təchizat sistemi pozulmuşdur. Kənd təsərrüfatı mütəxəssisləri itirilmiş və ya aqrar fəaliyyətdən məcburi kənarlaşdırılmışdır. Bütün bunlar respublikamızın kənd təsərrüfatına əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir.

İAEƏ-də kənd təsərrüfatı sektorunun inkişafını qiymətləndirmək üçün Ermənistanın işğalçılıq siyasətindən əvvəlki illərə nəzər salmaq kifayətdir. 1988-ci ilə nəzər saldığımız zaman görərik ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və ətraf rayonların kənd təsərrüfatının göstəriciləri yüksək idi.

İşğaldan əvvəlki dövrdə respublika üzrə iribuynuzlu mal-qaranın 15,8 faizi, xırdabuynuzluların isə 19,2 faizi həmin ərazilərin payına düşürdü. İribuynyzlu heyvandarlıqda Laçın, Ağdam və Füzuli rayonlarının, xırdabuynuzlu heyvandarlıqda isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cəbrayıl rayonlarının göstəriciləri yüksək idi. Qeyd olunan göstəricilərlə yanaşı, işğaldan azad edilən ərazilərin relyefi, iqlim şəraitləri və digər təbii imkanları nəzərə alınmaqla Qarabağ və ətraf rayonlarda kənd təsərrüfatının prioritet istiqamətlərini müəyyənləşdirmək mümkündür. Belə ki, aqrar sahibkarlıq subyektlərinin formalaşdırılması prinsiplərindən biri onların ixtisaslaşması ilə səciyyələnir. İAEƏ-də inkişaf prioritetləri, sahibkarlığın ixtisaslaşma istiqamətləri aşağıdakı kimi olmuşdur:

*Cədvəl 1*

***İAEƏ-nin işğaldan əvvəl ixtisaslaşma istiqamətləri***

| Rayonlar | İxtisaslaşma |
|---|---|
| Kəlbəcər | Heyvandarlıq, tərəvəzçilik, meyvəçilik |
| Xocalı | Kartofçuluq, heyvandarlıq |
| Cəbrayıl | Heyvandarlıq, üzümçülük, baramaçılıq |
| Laçın | Heyvandarlıq, taxılçılıq, bağçılıq |
| Qubadlı | Heyvandarlıq, arıçılıq, baramaçılıq, üzümçülük |
| Füzuli | Taxılçılıq, qoyunçuluq, bitkiçilik |
| Xocavənd | Heyvandarlıq, üzümçülük, quşçuluq |
| Şuşa | Heyvandarlıq, meyvəçilik, quşçuluq |
| Zəngilan | Heyvandarlıq, taxılçılıq, üzümçülük, arıçılıq, baramaçılıq |
| Ağdam | Heyvandarlıq, pambıqçılıq, taxılçılıq |

Qarabağın əzəli inkişaf etdirilən üzümçülük sahəsinə 1970-ci illərdən sonra daha böyük diqqət yetirilmişdir. Üzümçülük və şərabçılıq sahəsinin inkişafı üçün yeni texnikası və şərab zavodları olan ixtisaslaşdırılmış iri savxoz-zavodlar yaradılmışdı. İnkişafına diqqət ayrılan sahələrdən biri də tütünçülük idi.

Ermənistanın işğalçı təcavüzü nəticəsində Qarabağda fəaliyyət göstərən çoxlu sayda təsərrüfatlar və təsərrüfat birlikləri öz fəaliyyətlərini dayandırdılar. Məlumatlardan görünür ki, işğal edilmiş ərazilərdə 7296 ədəd hidroqurğular, 36 ədəd nasos stansiyaları, 26 ədəd suvarma sistemləri, 18 ədəd suvarma qurğuları, 1200 km təsərrüfatlararası suvarma kanalları, 5600 km təsərrüfatdaxili sistemləri sıradan çıxarılmış, 127,7 min ha suvarılan torpaqlar yararsız hala salınmışdır. Aztorpaqlı Qafqaz regionunda torpaq sahələrinin sıradan çıxarılması nəticəsində milyonlarla insan əsas yaşayış mənbəyindən-torpaqdan məhrum edilmişdi. (cədvəl 2)

***Cədvəl 2.***

***İşğal olunmuş rayonların işğaldan əvvəl kənd təsərrüfatı müəssisələri və onların texnikası (1988-ci il)***

| Rayonlar | Kənd təsərrüfatı müəssisələri | O cümlədən | | | Avtonəqliyyat | Traktorlar |
|---|---|---|---|---|---|---|
| | | sovxozlar | kolxozlar | Təsərrüfatlararası müəssisələr | | |
| Keçmiş DQMV | 99 | 43 | 49 | 7 | 800 | 2254 |
| Laçın | 30 | 28 | - | 2 | 60 | 70 |
| Kəlbəcər | 37 | 4 | 30 | 3 | 28 | 32 |
| Ağdam | 34 | 1 | 10 | 6 | 257 | 392 |
| Füzuli | 44 | 25 | 15 | 4 | 94 | 265 |
| Cəbrayıl | 24 | 7 | 14 | 3 | 77 | 145 |
| Qubadlı | 25 | 10 | 12 | 3 | - | 109 |
| Zəngilan | 18 | 10 | 5 | 3 | 49 | 158 |
| Cəmi | 311 | 145 | 135 | 31 | 1365 | 3425 |

Beləliklə, 1989-cu ildən sonra Ermənistanın təcavüzü ilə Qarabağ ərazisinin işğal olunması nəticəsində 311 kənd təsərrüfatı müəssisələri, o cümlədən 145 yeni təşkil olunmuş sovxozlar, 1365 avtomobil, 3425 əkin və qoşqu traktoru, 62 su nasosu və suvarma aqreqatları, 645,5 min ha kənd təsərrüfatına yararlı torpaqlar, 185,5 min ha əkin yerləri, 40 min ha bar verən cavan üzüm plantasiyaları sıradan çıxarılmışdır.

Azərbaycanın əsas kənd təsərrüfatı məhsulları (təxminən 80-85 faizi) suvarılan torpaqlarda istehsal olunur. Azərbaycan ərazisinin çox hissələrində quraqlıq iqlim hökm sürdüyündən su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,3 km$^3$-dir və əsas hissəsini çay suları təşkil edir ki, onun da illik həcmi 30, 9 km$^3$-ə bərabərdir. Bu su ehtiyatlarının yalnız 10,2 km$^3$-i, yaxud 33

faizi respublikanın öz ərazisində formalaşır, qalan 20,7 $km^3$-i, yaxud 67 faizi qonşu dövlətlərin ərazilərindən daxil olan çay sularının hesabına formalaşır. [8, s.62] Ermәni işğalçıları uzun müddət nəinki torpaqlarımızı talan etmiş, həm də işğal altında olan su mənbələrimizi antropogen təsirlərə məruz qoymuşlar, respublikamızın su təminatında ciddi problemlər yaratmışlar, ekoloji tarazlığı pozmuşlar. Hər il orta hesabla 179,4 min ton taxıl, 20,5 min ton pambıq, 324,3 min ton üzüm, 23,5 min ton kartof və s. bitkiçilik məhsulları işğal nəticəsində toplanmamış, 313,1 min başdan çox iri buynuzlu mal-qara, o cümlədən 111,2 min baş inək və camış, 1 milyon 98 min qoyun və keçi qarət edilmiş və həmçinin 20 min ton ət, 75,5 min ton süd, 846 ton illik heyvandarlıq məhsulları itirilmişdir. [8, s.61] Hesab edirik ki, İAEƏ-də aqrar sahibkarlığın formalaşması və inkişafına erməni təcavüzü çox ağır zərbələr vurmuşdur.

İşğal edilmiş ərazilərdən olan insanların böyük hissəsi artıq uzun müddətdir ki, kənd təsərrüfatında fəaliyyət göstərmirlər. Həmin şəxslərin müasir kənd təsərrüfatı texnika və texnologiyasının tələblərinə uyğun olaraq bilik və bacarıqların yaradılması və inkişaf etdirilməsi üçün müxtəlif xidmətlərin göstərilməsi və peşə təlimlərinə cəlb edilərək sahibkarlıq subyektlərinin formalaşdırılmasına kömək edilməsinə böyük ehtiyac yaranmışdır.

Yuxarı Qarabağın işğal olunmuş rayonlarından məcburi çıxarılan 611,3 min nəfər köçkün artıq 28 ildən artıqdır ki, öz doğma torpaqlarında yetişdirdikləri kənd təsərrüfatı məhsullarından məhrum edilmişlər. Özü də köçkünlərin müvəqqəti məskunlaşdıqları düzən ərazilər tamam başqa torpaq-iqlim şəraitinə və ona uyğun aqroqaydalarla becərilən kənd təsərrüfatı sahələrinə malikdirlər. Yeni ərazidə belə sahələri becərmək onlara çox böyük çətinliklər törədir. Kəlbəcərin dağlıq ərazisində heyvandarlıqla məşğul olan kəndli, hazırda məskunlaşdığı düzən Bərdə rayonunda və digər yerlərdə suvarma pambıqçılıq təsərrüfatından baş çıxarmaqda olduqca böyük çətinlik çəkirlər. İşğal olunmuş rayonlar əvvəllər ölkədə istehsal olunan məhsulların xeyli hissəsini verirdilər. 1988-ci ildə bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı aşağıdakı cədvəldə verilir. (cədvəl 3.)

***Cədvəl 3.***
***İAEƏ-nin keçmiş DQMV və ətraf rayonlarında kənd təsərrüfatı məhsulları istehsalı (1988) [3]***

| rayonlar | Taxıl (min ton) | Bitkiçilik məhsulları | | | Heyvandarlıq məhsulları | | | | Barama (ton) |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Pambıq (min ton) | Üzüm (min ton) | Kartof (ton) | ət (min ton) | Süd (min ton) | Yunurta (min ədəd) | Yun (ton) | |
| Keçmiş DQMV | 100,0 | - | 71,8 | 2765 | 10,2 | 36,5 | 11,1 | 477 | 89,0 |
| Laçın | 3,0 | - | - | 46,0 | 2,0 | 4,1 | - | 198 | - |
| Kəlbəcər | 1,0 | - | - | - | 1,0 | 3,1 | - | 86 | - |
| Ağdam | 30,0 | 19,0 | 1,2 | 5,0 | 2,7 | 12,6 | 2,3 | 297 | 379 |
| Füzuli | 31,9 | 1,5 | 100,1 | - | 1,5 | 6,8 | 1,1 | 128 | - |
| Cəbrayıl | 20,1 | - | 42,0 | 13,0 | 1,4 | 6,6 | - | 130 | 282 |
| Qubadlı | 6,7 | - | 2,9 | 55,0 | 0,6 | 3,3 | - | - | 14,4 |
| Zəngilan | 4,6 | - | 16,3 | 64,0 | 0 | 2,5 | - | 20 | 82,0 |
| Cəmi | 179,4 | 20,5 | 324,3 | 2948 | 20,0 | 75,5 | 14,5 | 1360 | 846,4 |
| İAEƏ-in işğaldan əvvəl resp.xüsusi çəkisi, % | 14,3 | 3,3 | 31,5 | 6,3 | 14,5 | 17,1 | 3,6 | 19,3 | 17,0 |

Ermənistan təcavüzü bu rayonların yüksək inkişaf etmiş heyvandarlıq sahələrinə daha çox ziyan vurmuşdur. Belə ki, Azərbaycanın dağ rayonlarının sosial-iqtisadi geriliyini aradan qaldırmaq məqsədi ilə əvvəlki illərdən həmin ərazilərə böyük həcmdə vəsait yönəldilmiş, vergilərin həcmi azaldılmış, şəxsi həyətyanı təsərrüfatlar inkişaf etdirilmişdir. Bütün bu tədbirlər işğala məruz qalmış dağ rayonlarında heyvandarlıq sahələrinin güclü inkişafına səbəb olmuşdur.

Azərbaycan rayonlarının 1990-1993-cü illərdə bir-birinin ardınca zəbt edilməsi müharibə zolaqlarından mal-qara sürülərinin qabaqcadan çıxarılmasına imkan vermədi. Bu ərazilərdən kiçik qruplarla çıxarılan heyvanlar yol boyu aclıq və susuzluqdan tələf oldular.

***Cədvəl 4.***

***İşğal olunmuş rayonlarda heyvanların sayı (baş) [3, s.108-320]***

| İşğaldan azad edilmiş rayonlar | İribuynuzlu mal-qara | O cümlədən inək və camışlar | Qoyun və keçilər | donuzlar |
|---|---|---|---|---|
| Keçmiş DQMV | 90227 | 29524 | 225791 | 81434 |
| Laçın | 42057 | 15284 | 242775 | - |
| Kəlbəcər | 33298 | 11736 | 107760 | - |
| Ağdam | 45127 | 16351 | 194300 | 1210 |
| Füzuli | 36820 | 13578 | 144370 | - |
| Cəbrayıl | 26489 | 9536 | 118885 | - |
| Qubadlı | 21026 | 8392 | 30098 | - |
| Zəngilan | 18085 | 6843 | 34902 | - |
| Cəmi | 313129 | 111244 | 1098881 | - |
| İAEƏ-in işğaldan əvvəl resp.xüsusi çəkisi, % | 15,8 | 14,9 | 19,2 | 38,7 |

Araşdırmalar göstərir ki, işğal altında olan torpaqların 56 faizi (380 min hektar) heyvandarlığın inkişafı üçün örüş-otlaq sahəsi olmuşdur. Bunun əksəriyyəti yay otlaqları olmaqla heyvandarlığın inkişafı və ət-süd istehsalında mühüm əhəmiyyətə malik olmuşdur. İşğal nəticəsində bu torpaqlar istifadəsiz qalmış, kənd təsərrüfatı istehsalçılarına milyardlarla manat ziyan vurulmuşdur.

2020-ci ilin sentyabr ayının 27-də Ermənistanın növbəti hərbi təxribatından sonra Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə Azərbaycan Ordusunun 44 gün davam edən əks-hücum əməliyyatı noyabrın 9-da tarixi qələbəmizlə başa çatdı Vətən müharibəsində bu qələbənin qazanılmasında, ərazi bütövlüyümüzün təmin olunmasında, şəhər və kəndlərimizin, bütün ərazilərimizin işğaldan azad edilməsində xalq - prezident-ordu birliyi əsas rol oynadı. Ölkə prezidentimizin qeyd etdiyi kimi, əsas vəzifəmiz işğaldan azad edilən, xarabalığa çevrilmiş, dağıdılmış bu ərazilərimizi yenidən qurmaq, bərpa etmək üçün genişmiqyaslı işlər görüləcəkdir. [6, s.107] Qarabağda tarixi ərazilərimizin bərpası və yenidən qurulması üçün şəhər və kəndlərdə enerji, qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal, mədəni – tarixi abidələrin, yaşayış evlərinin tikintisi və digər zəruri infrastrukturların yenidənqurulması və bərpası işləri həyata keçiriləcəkdir. Hesab edirik ki, Qarabağda azad edilən ərazilərin coğrafi mövqeyi, işçilərə olan tələbat, yeni texnologiyaların tətbiqi əsasında kənd təsərrüfatının bir çox sahələrinin, bunun əsasında emal sənayesinin inkişaf etdirilməsinə böyük imkanlar mövcuddur. Sahələr arasında inteqrasiya əlaqələri elə formalaşdırılmalıdır ki, məhsuldar qüvvələr düzgün yerləşdirilsin, mövcud potensiallardan daha səmərəli istifadə edilsin. [6, s. 108]

Ərazilərin 30 il ərzində işğalda olması və hazırda ermənilərin tapdağından azad edilməsi əhalinin ərazilərdə məskunlaşması, bazar münasibətləri prinsiplərinə uyğun yeni təsərrüfat formalarının yaradılması, sahibkarlığın formalaşması ilə müşayiət olunmalıdır. Çalışmaq lazımdır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra həyata keçirdiyi müsbət islahatlar təcrübəsindən düzgün yararlansın. Ərazilərdə əmlak dağıdıldığından özəlləşdirilməsi və pay kimi verilməsi mümkün olmayacaq. Ancaq torpaqların paylanması prosesini də faydalı hesab etmək olmaz. Hesab edirik ki, hər bir kənddə müvafiq ixtisaslaşmaya uyğun istehsal və xidmət kooperativlərinin yaradılması düzgün olardı. Burada əhalinin tarixi vərdişlərindən istifadə edərək sahələrin ixtisaslaşması aparılmaqla sahələr inkişaf etdirilə bilər. Sahələr bərpa olunduqdan sonra rəqabət qabiliyyəti, yüksək keyfiyyətli məhsul istehsal edən texnika və texnologiya hesabına müasir istehsal və xidmət

müəssisələri-kooperativlər yaradılmalıdır. Vəsait və maliyyə baxımından daxili və xarici investorların ərazilərə cəlb edilərək hazır məhsul istehsal edən müştərək emal müəssisələri yaradılması məqsədəuyğun olar. [6, s.108]

Göstərilən tədbirlərin həyata keçirilməsi nəticəsində İAEƏ-nin inkişaf meyilləri nəzərə alınmaqla 2025-ci ildə kənd təsərrüfatı məhsulları istehsalının proqnozunu aşağıdakı kimi müəyyən etmək olar:

***Cədvəl 5.***

***Azərbaycanda torpaqların erməni işğalından əvvəl və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalı [2, s.75-101, 6]***

| Məhsullar | İllər üzrə | | | | | 2025-ci ilə proqnoz |
|---|---|---|---|---|---|---|
| | 1990 | 1995 | 2000 | 2010 | 2019 | |
| Taxıl | 1413 | 921,4 | 1540,2 | 2000,5 | 3538,5 | 3800 |
| Pambıq | 542,9 | 274,1 | 91,5 | 38,2 | 295,3 | 330 |
| Tütün | 53,3 | 8,5 | 17,3 | 3,2 | 6,0 | 7,7 |
| Kartof | 185 | 155,5 | 469 | 953,7 | 1004,2 | 1200 |
| Tərəvəz | 856,2 | 424,1 | 780,8 | 1189,5 | 1714,7 | 2000 |
| Meyvə | 320 | 324,2 | 477 | 729,5 | 1099,7 | 1350 |
| Üzüm | 1196 | 308,7 | 76,9 | 129,5 | 201,8 | 250 |
| Ət (diri çəkidə) | 294,2 | 135 | 195,8 | 425,9 | 573,3 | 650 |
| Süd | 970,4 | 826,5 | 1031,1 | 1535,8 | 2129,4 | 2300 |
| Yun (fiziki çəkidə) | 11,1 | 9,0 | 10,9 | 15,6 | 16,1 | 18 |
| Yumurta (mln ədəd) | 985,3 | 455,8 | 542,6 | 1178,6 | 1827,1 | 1900 |
| Barama | 4,9 | 1,1 | 0,1 | 6,0 | 6,4 | 7,5 |

1994-1995-ci illərdə və sonrakı illərdə keçirilən məqsədyönlü və ardıcıl tədbirlər, xüsusən islahatlar nəticəsində uzunmüddətli tənəzzül meyilləri dayandırıldı, yeni iqtisadi münasibətlər formalaşdırıldı, mövcud potensiallardan səmərəli istifadə edilməklə daxili istehsal artırıldı, makroiqtisadi sabitlik təmin olundu. Azərbaycan ərazilərinin 30 ilə yaxın bir müddətdə işğal altında olmasına baxmayaraq 1995-2020-ci illərdə kənd təsərrüfatı məhsulları istehsalı müqayisə edilən 1995-ci ilə nisbətən dəfələrlə artdı. İqtisadi münasibətlərin bazar prinsiplərinə uyğun formalaşması, sahibkarlığın inkişafı, həyata keçirilən uğurlu islahatların nəticələri idxal-ixrac əməliyyatlarında müsbət meyillərin əmələ gəlməsinə imkan verdi. Ölkədə ixrac olunan kənd təsərrüfatı və emal məhsullarının həcmi xeyli artdı, idxalın strukturu dəyişdirildi, bu istiqamətdə məzmunca yeni sahələr yaradıldı və fərqli münasibətlır formalaşdırıldı. Ölkədə erməni təcavüzkarlarının Qarabağ ətrafı rayonları və Ermənistanla sərhəd rayonları müntəzəm atəş altında saxlamalarına baxmayaraq bitkiçilik və heyvandarlığın inkişafının daxili bazarın tələblərinə uyğunlaşdırılması, beynəlxalq təşkilatların, xarici sərmayələrin cəlb olunması istiqamətində çox böyük addımlar atıldı. [6, s. 106]

### *Nəticə*

Hesablamalar göstərir ki, 2025-ci ildə ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalını 6-7 faiz artırmaq mümkün ola bilər. Bu artım torpaq və su ehtiyatlarından istifadə, əmək və maliyyə imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır. Göstərilənlərlə əlaqədar İAEƏ-də aqrar sahənin inkişaf etdirilməsi üçün bir sıra tədbirlərin, təşkilati-iqtisadi mexanizmlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

- innovasiya fəallığını artırmaq üçün məhsula deyil, daha çox proses innovasiyalarına üstünlük verilməlidir;
- rəqabət qabiliyyətli məhsul istehsalını artırmaq üçün innovasiya ideyalarını generasiya edən kadr təminatı olmalıdır;
- mülkiyyətin çoxnövlülüyünü təmin etməklə inteqrasiya prosesi genişləndirilməlidir;

- ərazilərdə inkişafın təmin edilməsi məqsədilə tədqiqatlar genişləndirilməlidir;
- iqtisadi idarəetmə istehsal və bazarın tələblərinə uyğun təmin edilməli, istehsal və xidmətlərin reallaşdırılmasına münbit şərait yaradılmalıdır;
- ərazilərdə maliyyə, kredit, sığorta, vergi və digər iqtisadi mexanizmlər ölkədə qazanılan təcrübəyə və beynəlxalq təcrübəyə əsaslanmalıdır;
- idarəetmənin təşkilati strukturu hazırlanmış dövlət proqramı əsasında həyata keçirilməlidir;
- ərazidə fəaliyyət göstərən sahibkarlıq subyektləri barədə müntəzəm informasiya-məlumat bazası yaradılmalıdır;
- ərazidə istehsal olunan məhsulların ixracyönümlülüyü təşviq olunmalı və dəstəklənməlidir,
- müasir infrastruktura malik biznes inkubatorları və aqrosənaye parkları yaradılmalıdır;
- ərazidəki sahibkarların maarifləndirilməsi üçün hər rayonda mərkəzlər yaradılmalıdır;
- kəndlərdə özəl toxumçuluq, damazlıq və baytarlıq xidməti yaradılmalı və dəstəklənməlidir;
- ərazidə çörəkbişirmə, şərabçılıq, ət-süd, tütün, balıq, quşçuluq, qarışıq yem istehsalı müəssisələri, tara və qablar istehsal edən müəssisələr yaradılması kredit, vergi, investisiya mexanizmləri ilə dəstəklənməlidir;
- ətraf mühitin qorunması və torpaqların mühafizəsi təmin edilməlidir və s.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bakı, 2016, 177 s.
2. Azərbaycan Kənd təsərrüfatı. Statistik göstəriciləri. Bakı. 2019, 644 s.
3. Ermənistan-Azərbaycan münaqişəsi. Prezident kitabxanası.Bakı, 2005,390 s.
4. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016, 655 s.
5. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin perspektiv inkişaf istiqamətləri. Bakı, 2021, Audit jurnalı N-1, s.104-111.
6. İbrahimov İ.H. İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı. Kənd təsərrüfatının iqtisadiyyatı. Jurnal.Bakı, 2021, N-1.
7. Kənd Təsərrüfatı Nazirliyinin illik hesabatı. Bakı, 2020, 20 s.
8. Vəliyev A.H. İşğal altında olmuş ərazilərdə kənd təsərrüfatı torpaqlarının potensiallarının dəyərləndirilməsi. Kənd təsərrüfatının iqtisadiyyatı. Jurnal. Bakı. 2020 N-3 s.60-68.



***Ислам Гаджи оглы Ибрагимов***
***доктор экономических наук, профессор,***
***Заслуженный работник сельского хозяйства***
***Бакинский Университет Бизнеса***


## Возможности и факторы развития аграрного сектора на освобожденных от оккупации территориях


***Резюме***

**Цель исследования -** изучить потенциал и факторы развития аграрного сектора на освобожденных территориях.

**Методология исследования** - исследование проводилось на основе логического и системного подхода, методов сравнительного анализа.

**Практическая значимость исследования** - предложения, подготовленные на основе полученных аналитических результатов, могут быть использованы в эффективном использовании имеющегося потенциала аграрного сектора на освобожденных территориях, при разработке соответствующих регуляторных программ.

**Результаты исследования -** По результатам исследования разработаны предложения по развитию аграрного сектора на освобожденных территориях.

**Оригинальность и научная новизна исследования** - существующие возможности аграрного сектора на освобожденных территориях и направления его использования освещаются конкретными фактами. В статье исследуется разрушение наших земель и собственности в результате оккупационной политики Армении, перемещение проживающего здесь населения и огромный материальный ущерб сельскохозяйственному сектору. Доля продукции растениеводства и животноводства, произведенной на оккупированных территориях в республике до оккупации, освобождения наших территорий от оккупации 9 ноября 2020 года, эффективного использования имеющихся земельных, водных, трудовых ресурсов и формирования предпринимательства до 2025 года обоснован рост производства сельхозпродукции на 6-7 процентов. В связи с этим выдвигаются соответствующие предложения по развитию сельского хозяйства в районе.

***Ключевые слова: потенциал, развитие, бизнес, материальный ущерб, оккупация, территориальная целостность, реконструкция.***

***Islam Haji Ibrahimov***
***Doctor of Economics, Professor,***
***Honored Agriculture Worker***

## Opportunities and factors for the development of the agricultural sector in the territories liberated from occupation

***Summary***

**The purpose of the research** - is to study the potential and factors of development of the agricultural sector in the liberated territories.

**The methodology of the research** - the research was carried out on the basis of a logical and systematic approach, methods of comparative analysis.

**The practical importance of the research** - proposals prepared on the basis of the analytical results obtained can be used in the effective use of the existing potential of the agricultural sector in the liberated territories, in the development of appropriate regulatory programs.

**The results of the research** - Based on the research results, proposals have been developed for the development of the agricultural sector in the liberated territories.

**The originality and scientific novelty of the research** -the existing possibilities of the agricultural sector in the liberated territories and the directions of its use are highlighted by specific facts. The article examines the destruction of our lands and property as a result of the occupation policy of Armenia, the displacement of the population living here and the huge material damage to the agricultural sector. The share of crop and livestock products produced in the occupied territories before the occupation in the republic, the liberation of our territories from occupation on November 9, 2020, the effective use of available land, water, labor resources and the formation of entrepreneurship until 2025 The growth of agricultural production by 6-7 percent is substantiated. In this regard, appropriate proposals are put forward for the development of agriculture in the region.

***Key words: potential, development, business, material damage, occupation, territorial integrity, reconstruction.***